Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

# KİVDF

www.kivdf.gov.az

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

# "Azərbaycandakı dözümlülük mühiti dünyada ən nadir modellərdən biridir"

Qəzetimizin ötən saylarında Moskvadakı Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzində Heydər Əliyev Fondunun təşəbbüsü ilə dünya şöhrətli fotoqraf Rza Deqatinin ölkəmizdə dini tolerantlığa həsr olunmuş "Azərbaycan. Tolerantlıq məkanı" fotosərgisinin açılışından bəhs edən yazıya yer vermişdik. Həmin yazıda qeyd olunmuşdur ki, bu tədbir Azərbaycanda tolerantlığın yüksək səviyyədə olması və onun dünya modeli rolunu oynamasının əyani sübutlarından biridir.

Tədbirdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qeyd edib ki, xristianlar, müsəlmanlar və yəhudilər bu qədim diyarı öz Vətənləri sayırlar: "Bu gün ölkəmizdə sinaqoqlar, məscidlər, pravoslav və katolik kilsələri, habelə atəşpərəst məbədləri görmək olar. Azərbaycanda 21 qeyri-müsəlman icması mövcuddur. Tolerantlıq, qonaqpərvərlik, dözümlülük ənənələri xalqımız tərəfindən qayğı ilə qorunub saxlanılır, daha doğrusu, bu, Azərbaycan xalqının ən böyük sərvətidir. Azərbaycan beynəlxalq dialoqu, mədəni dialoqu dəstəkləyir. Artıq bir neçə ildir ölkəmizdə dünyanın hər yerindən qonaqların bir araya gəldiyi Beynəlxalq Humanitar Forum, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, habelə idman yarışları, elmi diskussiyalar, yaradıcılıq tədbirləri keçirilir. Heydər Əliyev Fondu bu mövzuya böyük diqqət yetirir. Fondun səyləri ilə Azərbaycanda 20-yə yaxın məscid, sinaqoq və kilsə təmir olunub. Fond təkcə Azərbaycanda deyil, başqa ölkələrdə də belə fəaliyyətlə məşğuldur. Heydər Əliyev Fondu Fransada X əsrə aid kilsəni təmir edib. Bundan əlavə, Strasburq, Versal və Vatikanda abidələrin, kilsələrin bərpasına kömək etmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu yaxınlarda Həştərxanda müqəddəs knyaz Vladimirə abidə qoyulub.

Bu gün biz Rusiyanın paytaxtı Moskvada belə bir tədbir keçiririk. Rusiya çoxmillətli ölkədir. Burada təqribən yüz xalqın nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayır və müxtəlif dinlərə etiqad edirlər. Azərbaycan və Rusiyanı uzun illər dostluq və mehriban qonşuluq münasibətləri bağlayır. Ümumi tariximiz var və biz bir-birimizi yaxşı anlamağı öyrənmişik. Bu gün dünyada multikulturalizm anlayışı, təəssüf ki, şübhə altına alınır. Bir çox münaqişələr bəzən bir-birini anlamaqdan və başa düşməkdən imtina etmək səbəbindən baş verir. Odur ki, inam, anlayış, ehtiram və sevgini qoruyub saxlamaq bu gün çox vacibdir".

### "Azərbaycan dövləti dini tolerantlığın qorunmasına kömək edir"

Tədbirin keçirilməsinin əsas təşkilatçılarından biri olan Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu da rəssamın fotosərgisinin Azərbaycandakı tolerantlığın və multikulturalizmin beynəlxalq aləmdə təbliği baxımdan böyük əhəmiyyət daşıdığını qeyd etdi. O dedi ki, belə sərgilər, Rza Deqatinin çəkdiyi fotoşəkillər kimi gözəl şəkillər hər gün dünyada baş verən faciəli xoşagəlməz hadisələrin daha da azalması baxımında çox vacibdir. Səfir xatırlatdı ki, Azərbaycan dövləti dini tolerantlığın qorunmasına kömək edir və bu müstəvidə də dövlət hesabına xristian mədəniyyət mərkəzi inşa edilib. Sinaqoq tikilmiş və yəhudi icmasının istifadəsinə verilmişdir. P.Bülbüloğlu Azərbaycanın müsəlman, xristian və yəhudi icmalarının rəhbərləri və nümayəndələri məxsusi olaraq sərginin açılış mərasimində iştirak etmək üçün Moskvaya gəlmələrini və dünyaya tolerantlıq nümunəsi olan tədbirdə birgə iştirak etmələrini də multikulturalizmin parlaq nümayişi olduğunu söylədi.



Sərgidə nümayiş olunan fotoşəkillərin müəllifi, dünyanın ən tanınmış fotoqraflarından biri, mənşəcə azərbaycanlı Rza Deqati isə qeyd etdi ki, Azərbaycanda şahidi olduğu dözümlülük mühiti dünyada ən nadir modellərdən biridir. O, sərginin keçirilməsinə dəstək verdiyi üçün Heydər Əliyev Fonduna və şəxsən fondun vitse-prezidenti Leyla Əliyevaya minnətdarlığını bildirib.

Qeyd edək ki, Rza Deqatinin sərgisində onun Azərbaycana səfərləri zamanı çəkdikləri "Müqəddəs Məryəm kilsəsi", "Müqəddəs Mirodaşıyan Qadınlar Kafedral kilsəsi", Qax rayonunda Kürmük məbədi, Şamaxıda "Cümə məscidi, Şəhidlər xiyabanı, Əjdərbəy məscidi, Məşədi Dadaş məscidi, Çotari kilsəsi (Müqəddəs Yelisey kilsəsi) və digər şəkillər böyük maraq doğurub. Bir sözlə, 500-dən çox qonaq - rəsmi şəxslər, Rusiya Dövlət Dumasının deputatları, tanınmış incəsənət xadimləri, Rusiya ictimaiyyətinin nümayəndələri, xarici ölkələrin RF-də akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və əməkdaşları, Heydər Əliyev Fondunun, Azərbaycanın Rusiyadakı Səfirliyinin əməkdaşları, Ümumrusiya Azərbaycanlılar Konqresinin nümayəndələri iştirak etdikləri bu tədbir və sərgidə nümayiş etdirilən fotoşəkillər təsdiq edir ki, müxtəlif dinlərdən və millətlərdən olan insanlar Azərbaycanda qardaşlıq şəraitində yaşadıqlarının bariz nümayişinə çevrildi.

### Tolerantlıq güclü və qüdrətli dövlət deməkdir

Əlbəttə, istənilən cəmiyyətdə, istənilən dövlətdə və ya ictimai-siyasi quruluşda ən önəmli məsələlərdən biri müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar arasında harmoniyanın qorunub saxlanılmasına, onların vahid amal ətrafında sıx birləşdirilməsinə nail olunmasıdır. Bu baxımdan, təbii ki, dövlət və din münasibətlərinin tənzimlənməsi, bu məsələnin hər zaman diqqət mərkəzində saxlanılması vacib şərtlərdəndir. Çünki, günümüzdə sivil dünyada bəzi pozucu güclərin bəşəriyyəti sivilizasiyalararası münaqişələrə çəkmək cəhdləri ara vermir. Qərbdəki müxtəlif pozucu mərkəzlər tərəfindən hazırlanaraq müxtəlid dinlərə və dillərə mənsub olan insanların birgə yaşadıqları ölkələrdə dinlər və millətlərarası qarşıdurmalar salmaq ssenariləri hər il dünyanın müxtəlif ölkələrində on minlərlə günahsız insanların qurban getməsi ilə müşayiət olunmaqdadır. Belə güclərin qarşısını isə yalnız dini dözümlülük, tolerantlıq və multikulturalizmlə almaq olar. Azərbaycan hazırda, sözün həqiqi mənasında bu məsələdə, dünyaya örnək olan ölkə rolunu oynamaqda, bəşəriyyətə tolerantlıq və multikulturalizm dərsi verməkdədir. Bu əsasda da ölkəmizdə dünyaya nümunə ola biləcək tolerantlıq modeli yaradılmışdır. Təbii ki, tolerantlıq azərbaycanlıların qanında ruhunda olsa da, bu sahənin qanunla tənzimlənməsi sivil inkişafımızın əsas şərtlərindən biridir. Məhz bunu nəzərə alaraq ölkəmizdə dövlət-din münasibətləri sivil hüquq normalarına uyğun olan qanunvericiliklə tənzimlənir. Tolerantlığı qoruyub saxlamaq və onu yeni mərhələdə inkişaf etdirmək üçün "Dini etiqat azadlığı haqqında qanuna" qəbul edilib. Bu qanunla da cəmiyyətimizdə fərdlərlə dövlət, dini icmalarla dövlət arasında münasibətləri tam şəkildə nizamlanır. Ulu öndər Heydər Əliyev bu sahənin qanunla nizamlanmasının ölkəmizin gələcəyi üçün xüsusi əhəmiyyət daşıdığını hələ o dövrdə düzgün, uzaqgörənliklə müəyyən etmişdi. Ulu öndərin Azərbaycanda tolerantlığın günümüzün tələbləri səviyyəsində inkişaf etdirilməsinə imkan verən, dövlət-din münasibətlərini tənzimləmək sahəsində atdığı ən uğurlu addımlardan biri isə Dini İşlər üzrə Dövlət Komitəsinin yaradılması oldu. Belə ki, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli 512 nömrəli Fərmanı iləAzərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır Bu komitə qısa müddətdə dövlət- din münasibətlərini, o cümlədən də dini icmaların fəaliyyəti ilə əlaqədar məsələləri nizamlayan və çevik fəaliyyət göstərən quruma çevrildi. Dini qurum ölkəmizdə fəaliyyət göstərən dini konfessiyalarla müntəzəm olaraq görüşlər keçirir, onların problemləri ilə maraqlanır, eyni zamanda dinlərarası münasibətlərin daha səmimi şəkildə inkişaf etdirilməsinə öz töhfəsini verir. Ölkəmizdə dini azlıqların öz ibadətlərini sərbəst şəkildə həyata keçirə bilməsi üçün onlara ibadət yerlərinin inşa edilməsinə yardım göstərir. Bundan əlavə, dövlətimiz tərəfindən onlar arasında heç bir fərq qoymadan hər il dini icmalara yardımlar ayrılır ki, bu da onların hər hansı bir proqramlarını həyata keçirməyə yardım edir. Bu da təsadüfi deyil. Belə ki, tolerantlığın sivil tələblərə uyğun şəkildə inkişaf etdirilməsi, dini icmalar arasında səmimi münasibətlərin qurulması, ölkəmizdə müxtəlif dinlərə mənsub olan insanların tolerantlıq ideyası ətrafında daha sıx birləşdirilməsi öz növbəsində güclü, qüdrətli və demokratik dövlət deməkdir.



*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında səhifəni hazırladı:*

**Əziz Mustafa**